*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 11, 2024*
*Səh. 111-118*

https://doi.org/10.62837/2024.11.111

**QARAŞOVA ŞAHNAZ NATİQ QIZI**
**Odlar Yurdu Universiteti**
**sahnaz.garasova@gmail.com**
**ORCİD:0009-0008-8952-9459**

# İNGİLİS DİLİ DƏRSİNDƏ SEMANTİK OXU VƏ ONUN HƏYATA KEÇİRİLMƏSİ MƏRHƏLƏLƏRİ

**Xülasə**

Xarici dilin tədrisi sistemində yaxın vaxtlara qədər mütaliəyə az əhəmiyyət verilirdi. Əgər əvvəllər hesab edilirdi ki, oxumaq yalnız şagirdin lüğətinə daxil olan yeni sözlərin mənbəyi, dialoq və monoloji xarakterli müxtəlif ifadələr üçün başlanğıc nöqtəsidir, indi oxuma öyrənmənin əsas məqsədlərindən biri - yeni intellektual və estetik məlumatların əldə edilməsi mənbəyi kimi qəbul edilməyə başlamışdır. Hal-hazırda oxu materialı xarici dillərin öyrənilməsi zamanı çox əhəmiyyət kəsb etməkdədir. Oxu materiallarının düzgün seçilməsi şagirdlərdə xarici dilin öyrənilməsinə maraq artırmış olur. Oxu materiallarının düzgün seçilməsi şagirdlərdə xarici dilin öyrənilməsinə maraq artırmış olur. Oxu materialları nəinki xarici dil bacarıqlarını inkişaf etdirir, eyni zamanda oxu bacarıqlarının fundamental əsasının da təşkilində əsas rol oynamış olur. Son illərdə xarici dillərin tədrisi metodikasında edilmiş dəyişikliklər oxu materiallarının seçilməsi və istifadəsində də öz əksini tapmışdır. Oxu materiallarının seçilməsi zamanı meydana çıxan problemlər və onların həlli yolları təqdim edilmiş işdə geniş müzakirə edilmişdir. Təqdim edilmiş məqalədə ingilis dili dərslərində oxu prosesi və onun semantik həyata keçirilməsi haqda təhlil aparılmışdır.

**Açar sözlər:** semantik oxu, ifadəli oxu, oxu strategiyası, oxu vərdişləri.

Semantik oxunu formalaşdırmaq üçün tədris prosesində fərqli tip oxu materialları təqdim edilə bilər. İlk növbədə bu dialoqlar ola bilər. Dialoqdan savayı şagirdlərə fərqli janrlarda oxu üçün mətnlər verilir. Əlavə olaraq "əlavə oxu" (Extensive Reading) bölməsi şagirdlərə əlavə oxu üçün deyil, semantik oxunu formalaşdıran tapşırıqlar təklif edərək tam didaktik fəaliyyət formalaşdırır.

Semantik oxunun verdiyi əsas bacarıqlar aşağıdakılardır:

- Başlığı oxuyaraq mətnin məzmunu müəyyən etmək;
- Əsas ideyanı başa düşmək;
- Mətndən əsas faktları ayırd etmək;
- Mətn daxilində əsas faktların məntiqi ardıcıllığını müəyyən etmək.

Semantik oxunun strategiyası deyərkən mətn daxilində məlumatın qəbulu üçün istifadə olunan üsulların toplusu nəzərdə tutulur.

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 11, 2024*
*Səh. 111-118*

Oxu materialını seçən müəllim çalışmalıdır ki, hər bir şagird oxu materialını oxuduqdan sonra sərbəst şəkildə materiala dair suallar verə bilməli və bu sualara cavab tapa bilməlidir. Əlbəttə ki, situasiyada müəllim özü nümunə rolunda çıxış etməlidir. Məhz müəllimin planlı fəaliyyəti nəticəsində "düşünən" tələbələr və şagirdlər formalaşır. Semantik oxu fəaliyyətinin strategiyası aşağıdakı addımların ardıcıllığından ibarətdir:

1) Prview – öncədən baxış mərhələsi: oxu materialındakı ümumi mövzunu müəyyən etmək və onu semantik hissələrə bölmək;
2) Question – sual mərhələsi: hər bir hissəyə sual formalaşdırılması;
3) Read – oxu mərhələsi: diqqətlə paraqrafı oxumaq və şagird tərəfindən qiyulan suala özünün cavab verməsi;
4) Reflect – düşünmə: oxu materialını oxuyarkən düşünmək, anlamağa çalışmaq və özlərinə məlum olan məlumatı yada salmaq;
5) Recite – nəql etmək: mətndə verilmiş məlumatı nəql etməyə çalışmaq;
6) Review – yoxlama: materiala yenidən nəzər salaraq verilmiş, qoyulmuş suallara təkrar cavab vermək.

Dövrümüzdə dilçilikdə mətnin 300-dən çox növünü müşahidə etmək olar. Rus dilçisi İ.R. Qalperinə görə *"Mətn nitq fəaliyyətini yaradan, tamamlanmış, başlığı olan, müxtəlif leksik, qrammatik, məntiqi, stilistik əlaqələri özündə cəmləşdirən, xüsusi işarələrdən yazı nümunəsidir"* [1].

Klemensovaya görə mətn əsas kommunikasiya vahididir. Dilçiyə görə: *"Mətn diskursdan formalaşır və onun törəməsi hesab edilir"* [2].

Şagirdlərin oxu vərdişlərini necə inkişaf etdirmək olar? Bu məsələnin həlli üçün strategiyalı oxunun əhəmiyyəti, anlayaraq oxunun metodları və yolları haqda təhlillər aparmaq lazımdır. Təhsilalan anlamadan oxumağın oxumaq hesab edilmədiyini qəbul edib başa düşməlidir. Bəzən şagird oxuduğu zaman sözləri düzgün tələffüz edə bilir, lakin, sözlərin mənasını anlamırlar. Aydın və səlis oxumaqlarına baxmayaraq yaxşı oxucu hesab olunmurlar. Bəs şagird nə zaman yaxşı oxucu hesab olunur? Onlar ilk növbədə məqsədli olmalı, oxumaqdan zövq almalı və oxuduqları materialdan məlumat axtarmalıdırlar. Onlar oxuyarkən mürəkkəb düşünmə fəaliyyətində olmalıdırlar.

Şagirdlərə fəal oxucu olmaq üçün müəyyən strategiyalar vardır. Bu strategiyalara oxuya məqsəd qoymaq, proqnoz vermək, oxu prosesi zamanı lazımsız informasiyanı ayırd etmək, suallar vermək, alınan informasiyanı əvvəlki biliklərlə qarşılaşdırmaq, oxunan oxu materialını ümumiləşdirmək daxildir. Strategiyalı oxu zamanı şagird öz fəaliyyətini özü təşkil və idarə etmiş olur. Bu cür bacarığa malik olan şagird artıq oxu materialına başlamazdan əvvəl nəticəni aydın təsəvvür edə bilir. Şagird verilən oxu materialının mənasını dərk etməyi problem, materialın oxunmasını isə bu problemin həlli kimi görür. O, artıq bilməlidir ki, materialı

oxuyarkən hansı suallar qoymalı və bu suallara cavab vermək üçün oxuduğu materialı hansı plana uyğun təşkil etməlidir.

Strategiyalı oxu eyni zamanda oxucuya əldə etdiyi nəticələr barədə düşünməyə imkan verir və bununla da o, oxudan aldığı nəticələri yoxlamaq imkanı əldə etmiş olur. Şagirddə bu zaman əsas idraki bacarıqlar formalaşmış olur, o, əsas ideyanı müəyyən edə, oxuduğu oxu materialını başqaları ilə müqayisə etmək, mətndəki hadisələri beynində canlandırmaq kimi bacarıqlar formalaşır. Bütün bu proselər təfəkkürün yüksək mərhələsinə doğru atılan addım kimi qəbul edilir. Beləliklə də, şagirdlər həm oxuduqları oxu materialını anlayır, eyni zamanda qavrama prosesinin mərhələlərini srtukturlaşdırır. Strategiyalı oxunun inkişafı o deməkdir ki, şagirdlər öz fikirərini və düşüncələrini təlimlə əlaqələndirməyi öyrənməlidirlər.

Düşünürük ki, strategiyalı oxunun vacib bir əhəmiyyəti də ondadır ki, şagird oxuduğu sözlərin həm orfoqrafik, həm də orfoepik yazılmasını və tələffüzünü öyrənə bilir. Strategiyalı oxu verilmiş oxu materialı üzərində düşünüb onu dərk etmə mühiti yaradır. Oxu prosesində oxu strategiyaları ilə yanaşı oxu xüsusiyyətlərinin, oxu modellərinin və vərdişlərinin də böyük rolu vardır. Təhlillər göstərir ki, oxu savadına yiyələnmək çox çətin prosesdir. Bu zaman şagird sözlərdəki yalnız hərfləri deyil, eyni zamanda səsləri də qavramalı, hərf birləşmələrini müəyyən etməli və sözləri düzgün tələffüz etməlidir. Beləliklə də, deyə bilərik ki, oxu texnikası eşitməyə, görməyə, tələffüz etməyə və təhlil etməyə əsaslanan bir prosesdir.

Bəzən oxu materialının dərkedilməsinə oxu sürəti də təsir edir. Belə ki, bəzi şagirdlər özlərindən qeyri ixtiyari olaraq oxuduqları cümlələri təkrar oxuyurlar, bu da oxu sürətini azalda bilir. Bəzən xüsusi alqoritmlərdən istifadə etməklə bu sürəti artırmaq olar. Şagirdlər öncə sözləri hərf-hərf, sonra heca-heca, daha sonra söz şəklində səsləndirirlər. Bununla da, onlar əvvəlcə mətni ucadan, sonra pıçıltı ilə, sonra isə ürəkdə oxuma vərdişi formalaşdırır. Oxu prosesində vacib olan digər məsələ də diqqətlilikdir. Yavaş sürətlə oxuduqda şagirdin fikri kənara yayılır və bununla da mətnə olan maraq azalır. Beləliklə, o, oxuduğu hissəni təkrar oxumağa məcbur qalır.

Oxu prosesində diqqəti əvvəlcə ayrı-ayrı hərflərə, sonra sonra hecalara, daha sonra sözlərə yönəltmək qeyri-fəal oxuya səbəb olur. Belə halda şagird güman edir ki, elementlər öyrənilmədən oxunun nəticəsini gözləmək olmaz. Buna yol verməmək üçün uşaqlarda qabaqlayıcı məntiqi oxu vərdişləri yaratmaq lazımdır. Bu prinsipə görə şagird gözaltı baxmaqla indiki halda diqqəti üzərinə cəmlənmiş hərfdən (hecadan, sözdən) sonra gələn hərfin (hecadan, sözdən) nəzərdə tutulmuş obrazını yarada bilməlidir. Oxunun normal sürətinə o vaxt nail olmaq mümkündür ki, şagirdin görmə dairəsi ayrı-ayrı sözləri deyil, birdən-birə bir neçə sözü, söz birləşməsini, cümləni görmək vərdişinə yiyələnsin. Belə psixoloji məqsəd yalnız mərkəzi görmə sahəsindən deyil, həm də gözün soldan sağa tərəf ardıcıl hərəkəti ilə ətraf görüş dairəsindən məlumat almağa imkan verir.

Bütün bu faktorlar oxu prosesinin tədrisi zamanı istifadə əsnasında məqsədli şəkildə formalaşır. Bu zaman müəlim tərəfindən düzgün qoyulmuş, tərtib olunmuş suallar önəm kəsb edir. Beləliklə, düşünürük ki, yuxarıda qeyd edilən fərqli nəzəriyyələr fərqli yanaşma tərzindən ibarət olur. Z.İ. Klıçnikov oxu prosesini nitq fəaliyyətinin növü kimi qəbul edirək onu nitqin anlaşılması sxeminin həyata keçirilmə prosesi kimi qəbul etdiyi halda R.P. Milrud və A.A. Qonçarov bu prosesi mürəkkəb qavrama fəaliyyəti kimi qəbul edərək tənqidi düşüncə ilə əlaqələndirirlər [4]. Lakin, anlama prosesindəki fazalar hər iki konsepsiyada demək olar ki, oxşardır. Xarici dildə oxu materialının anlaşılması "anlama səviyyəsi" olmadan mümkün deyildir. Z.İ. Klıçnikovaya görə anlama səviyyəsi oxu materialının dərindən anlaşılmasını xarakterizə edir, başqa sözlə oxu materialının mənasına varma səviyyəsidir [3].

Tədris zamanı şagirdlər müxtəlif növ oxu bacarıqlarına yiyələnməlidirlər. Metodiki ədəbiyyatlarda oxunun bir çox klassifikasiyası ayırd edilir. Bunlardan ən çox bilinəni S.K. Folomkinanın fikridir, o, oxunun 4 növünü təsnif etmişdir: tanışlıq məqsədli, baxış məqsədli, axtarış məqsədli və öyrənmə məqsədli oxu növləri.

Tanışlıq məqsədli oxuda mətn birdəfəlik və tam şəkildə oxunur. Bu oxuda mətnin əsas məğzinin anlaşılması yoxlanılır. Bu zaman əgər müəllim mətnin daxilində bir neçə sözün şagird tərəfindən çətin anlaşıldığını müşahidə edirsə, o təqdirdə o, bu sözləri lövhəyə yazır və şagirdlərlə birgə bu sözlər təhlil edilir. Bəzən bu növ oxu materialları oxunun tədrisi üçün ilkin mərhələ hesab edilə bilər. Bu növ oxu materialının əsas məqsədi yuxarıda da qeyd etdiyimiz kimi mətnin tam şəkildə anlaşılmasına yönəlmiş olur. Dərs prosesində müəllim şagirdlərə tam mətni təqdim edib, tam mətn təhlil edilirsə, ev tapşırığı olaraq həmin mətn verilir və şagirlər mətni daha dərindən mənimsəmək üçün təkrar mətni evdə təhlil etmiş olurlar.

Anlama səviyyəsinin 7 əsas dərəcəsi təklif edilir. Birinci anlama dərəcəsi xarici dilə çox zəif malik olduqda və ya məlumat çox mürəkkəb olduqda baş verir. Bu mərhələdə şagird yalnızca mətn daxilində ayrı-ayrı obyektləri ayırd edə bilir. Son iki ardıcıl mərhələdə şagird əşyalar, varlıqlar arasında əlaqəni müəyyən edir, bu mərhələdə ondan qrammatik biliklər tələb olunur. Dördüncü səviyyə anlamanın daha keyfiyyətli mərhələsi hesab edilir. Bu mərhələdə oxu materialının tam anlaması təmin edilir. Z.İ. Klıçnikovaya görə belə anlama səviyyəsi oxu materialı daxilində 20 % dən çox yeni leksik vahidlər olmadıqda baş verir. Sonuncu səviyyəyə çatmaq üçün şagirddən yüksək dil bilmə tələb olunur. Adətən bədii mətnlərin qəbulu zamanı bu səviyyə tələb olunur [3].

S.Elers qeyd edir ki, anlama səviyyələrinin ayırd edilməsi dərs prosesi üçün çox önəmlidir, belə ki, hər bir yeni səviyyə mərhələsində şagird oxu materialını anlamaq üçün daha çox bilik əldə etməlidir [5].

Düşünürük ki, bütün bunları nəzərə alaraq deyə bilərik ki, oxu prosesi zamanı, tədris prosesi zamanı oxu materialının seçilməsi və müəyyən olunması çox vacib

məsələdir. Müəllim oxu materialının seçilməsinə xüsusi diqqət ayırmalıdır. əks təqdirdə oxu prosesi şagird üçün üzücü təhlil məcburiyyəti ola bilər.

Şagirdlərin oxu vərdişlərini necə inkişaf etdirmək olar? Bu məsələnin həlli üçün strategiyalı oxunun əhəmiyyəti, anlayaraq oxunun metodları və yolları haqda təhlillər aparmaq lazımdır. Təhsilalan anlamadan oxumağın oxumaq hesab edilmədiyini qəbul edib başa düşməlidir. Bəzən şagird oxuduğu zaman sözləri düzgün tələffüz edə bilir, lakin, sözlərin mənasını anlamırlar. Aydın və səlis oxumaqlarına baxmayaraq yaxşı oxucu hesab olunmurlar. Bəs şagird nə zaman yaxşı oxucu hesab olunur? Onlar ilk növbədə məqsədli olmalı, oxumaqdan zövq almalı və oxuduqları materialdan məlumat axtarmalıdırlar. Onlar oxuyarkən mürəkkəb düşünmə fəaliyyətində olmalıdırlar.

Şagirdlərə fəal oxucu olmaq üçün müəyyən strategiyalar vardır. Bu strategiyalara oxuya məqsəd qoymaq, proqnoz vermək, oxu prosesi zamanı lazımsız informasiyanı ayırd etmək, suallar vermək, alınan informasiyanı əvvəlki biliklərlə qarşılaşdırmaq, oxunan oxu materialını ümumiləşdirmək daxildir. Strategiyalı oxu zamanı şagird öz fəaliyyətini özü təşkil və idarə etmiş olur. Bu cür bacarığa malik olan şagird artıq oxu materialına başlamazdan əvvəl nəticəni aydın təsəvvür edə bilir. Şagird verilən oxu materialının mənasını dərk etməyi problem, materialın oxunmasını isə bu problemin həlli kimi görür. O, artıq bilməlidir ki, materialı oxuyarkən hansı suallar qoymalı və bu suallara cavab vermək üçün oxuduğu materialı hansı plana uyğun təşkil etməlidir.

Strategiyalı oxu eyni zamanda oxucuya əldə etdiyi nəticələr barədə düşünməyə imkan verir və bununla da o, oxudan aldığı nəticələri yoxlamaq imkanı əldə etmiş olur. Şagirddə bu zaman əsas idraki bacarıqlar formalaşmış olur, o, əsas ideyanı müəyyən edə, oxuduğu oxu materialını başqaları ilə müqayisə etmək, mətndəki hadisələri beynində canlandırmaq kimi bacarıqlar formalaşır. Bütün bu proselər təfəkkürün yüksək mərhələsinə doğru atılan addım kimi qəbul edilir. Beləliklə də, şagirdlər həm oxuduqları oxu materialını anlayır, eyni zamanda qavrama prosesinin mərhələlərini srtukturlaşdırır. Strategiyalı oxunun inkişafı o deməkdir ki, şagirdlər öz fikirərini və düşüncələrini təlimlə əlaqələndirməyi öyrənməlidirlər.

Düşünürük ki, strategiyalı oxunun vacib bir əhəmiyyəti də ondadır ki, şagird oxuduğu sözlərin həm orfoqrafik, həm də orfoepik yazılmasını və tələffüzünü öyrənə bilir. Strategiyalı oxu verilmiş oxu materialı üzərində düşünüb onu dərk etmə mühiti yaradır. Oxu prosesində oxu strategiyaları ilə yanaşı oxu xüsusiyyətlərinin, oxu modellərinin və vərdişlərinin də böyük rolu vardır. Təhlillər göstərir ki, oxu savadına yiyələnmək çox çətin prosesdir. Bu zaman şagird sözlərdəki yalnız hərfləri deyil, eyni zamanda səsləri də qavramalı, hərf birləşmələrini müəyyən etməli və sözləri düzgün tələffüz etməlidir. Beləliklə də, deyə bilərik ki, oxu texnikası eşitməyə, görməyə, tələffüz etməyə və təhlil etməyə əsaslanan bir prosesdir.

Bəzən oxu materialının dərkedilməsinə oxu sürəti də təsir edir. Belə ki, bəzi şagirdlər özlərindən qeyri ixtiyari olaraq oxuduqları cümlələri təkrar oxuyurlar, bu da oxu sürətini azalda bilir. Bəzən xüsusi alqoritmlərdən istifadə etməklə bu sürəti artırmaq olar. Şagirdlər öncə sözləri hərf-hərf, sonra heca-heca, daha sonra söz şəklində səsləndirirlər. Bununla da, onlar əvvəlcə mətni ucadan, sonra pıçıltı ilə, sonra isə ürəkdə oxuma vərdişi formalaşdırır. Oxu prosesində vacib olan digər məsələ də diqqətlilikdir. Yavaş sürətlə oxuduqda şagirdin fikri kənara yayılır və bununla da mətnə olan maraq azalır. Beləliklə, o, oxuduğu hissəni təkrar oxumağa məcbur qalır.

Oxu prosesində diqqəti əvvəlcə ayrı-ayrı hərflərə, sonra sonra hecalara, daha sonra sözlərə yönəltmək qeyri-fəal oxuya səbəb olur. Belə halda şagird güman edir ki, elementlər öyrənilmədən oxunun nəticəsini gözləmək olmaz. Buna yol verməmək üçün uşaqlarda qabaqlayıcı məntiqi oxu vərdişləri yaratmaq lazımdır. Bu prinsipə görə şagird gözaltı baxmaqla indiki halda diqqəti üzərinə cəmlənmiş hərfdən (hecadan, sözdən) sonra gələn hərfin (hecadan, sözdən) nəzərdə tutulmuş obrazını yarada bilməlidir. Oxunun normal sürətinə o vaxt nail olmaq mümkündür ki, şagirdin görmə dairəsi ayrı-ayrı sözləri deyil, birdən-birə bir neçə sözü, söz birləşməsini, cümləni görmək vərdişinə yiyələnsin. Belə psixoloji məqsəd yalnız mərkəzi görmə sahəsindən deyil, həm də gözün soldan sağa tərəf ardıcıl hərəkəti ilə ətraf görüş dairəsindən məlumat almağa imkan verir.

Şagirdlərin oxu sürətini tənzim etmək üçün aşağıdakı priyomlardan istifadə etmək məsləhət görülür:

- Mətnin oxunmasından əvvəl sualların qoyulması;
- Dramlaşdırma;
- Dioloji mətnin oxunması. Dialoq şəklində mətn iki şagird tərəfindən oxunur: biri sualları, digəri cavabları oxuyur. Belə mətn oxunarkən sualları yaxşı oxuyan şagirdə tapşırmaq lazımdır ki, cavab verən öz oxu sürətini uyğunlaşdıracaq nümunə görsün.
- Əzbərlənmiş şerin oxunması;
- Mətnin hissə-hissə oxunması;
- Seçmə oxu;
- Saniyəölçənlə sürətli və şüurlu oxumaq üzrə yarışın keçirilməsi.

Beləliklə də, oxu prosesi şagirdlərə oxuduqlarının məzmununu sərbəst şəkildə təhlil etməyi öyrədir. Ümumiyyətlə, düşünürük ki, tədris prosesi zamanı istifadə olunan həm ana dili, həm xarici dildə oxu materialı şagirdlərin dünyaya baxışını formalaşdırır, onların təfəkkürünü, nitqini inkişaf etdirir, biliyini zənginləşdirir və təlimdə yüksək nailiyyətlər əldə etmələrini təmin edir. Xarici dildə sinifdənxaric oxu materialı uşaqlarda xarici dildə gözəl nitqə yiyələnmək, eyni zamanda onlarda yüksək əxlaqi keyfiyyətlərin formalaşmasına kömək edir.

Fikrimizcə, müstəqil mütaliə kortəbii mütaliə kimi başa düşülməməlidir. Bu növ mütaliə müəllim və valideyinlərin köməkliyi ilə getməlidir. Müəllim hər bir şagirdin oxuya olan maraq dairəsini, onun səviyyəsini və ümumi inkişafını nəzərə alaraq oxu materilını seçməlidir.

Tədris zamanı ifadəli oxu üçün şagirdlərə verilən ilkin tələblər aşağıdakı kimidir:

1. Şagird danışdığı kimi oxumalıdır;
2. Şagird oxu zamanı durğu işarələrinin tələblərinə əməl etməlidir;
3. Şagird sadə və təbii oxumalıdır;
4. Şagird sözləri səlis və aydın tələffüz etməlidir.;
5. İntonasiyasına fikir verməli, vurğuların yerini dəyişməməlidir;
6. Oxu zamanı leksik, qrammatik qaydalara riayət etməlidir;
7. Oxu vamanı nəfəsini düzgün idarə etməlidir və tələsməməlidir.

İfadəli oxunu təmin etmək üçün mətnin məzmunu şüurlu şəkildə mənimsənilməlidir. İfadəli oxu vərdişinin şagirdlərə aşılanması müəllimdən səbr, qətiyyət və sistemlilik tələb edir. Şagirdlərdə ifadəli oxu vərdişi formalaşdırmaq üçün nitq texnikasına əməl edilməlidir ki, bu texnikaya da oxu zamanı fasilə, səs və diksiya daxildirlər. Sinif oxu materiallarından əldə etdikləri məlumatlar sinifdənxaric oxunun köməkliyi ilə zənginləşir və tamamlanır. Sinifdənxaric oxu materialının köməkliyi ilə əldə edilən məlumatlar tədris prosesi zamanı geniş imkanlar yaradır.

## Ədəbiyyat

1. Гальперин, И.Р. Текст как объект лингвистического исследования. – М.: Наука. – 1981.
2. Клеменцова, Н.Н. Текст в обучении иностранному языку // Вестник МГИМО Университета, – 2012.
3. Клычникова, З.И. Психологические особенности обучения чтению на иностранном языке: Пособие для учителя. – М.: Просвещение, – 1983. – 207 с.
4. Мильруд, Р.П., Гончаров, А.А. Теоретические и практические проблемы обучения пониманию коммуникативного смысла иноязычного текста// Иностранные языки в школе, – 2003. № 1. – с.12-18.
5. Ehlers, S. Lesen als Verstehen. Zum Verstehen fremdsprachlicher literarischer Texte und zu ihrer Didaktik. GHK, – 1992. – 112 S.

**Shahnaz Qarashova**

## SEMANTIC READING IN THE ENGLISH LANGUAGE CLASS AND THE STAGES OF ITS IMPLEMENTATION

### Summary

Until recently, reading was given little importance in the foreign language teaching system. If earlier it was considered that reading is only a source of new words entering the

student's vocabulary, a starting point for various expressions of a dialogic and monologic nature, now reading has begun to be considered as one of the main goals of learning - a source of acquiring new intellectual and aesthetic information. Currently, reading material is very important in learning foreign languages. The correct selection of reading materials increases students' interest in learning a foreign language. The correct selection of reading materials increases students' interest in learning a foreign language. Reading materials not only develop foreign language skills, but also play a key role in forming the fundamental basis of reading skills. The changes made in the methodology of teaching foreign languages in recent years have been reflected in the selection and use of reading materials. The problems that arise during the selection of reading materials and their solutions are widely discussed in the presented work. In the presented article, an analysis was made about the reading process and its semantic implementation in English classes.

**Key words:** semantic reading, expressive reading, reading strategy, reading habits.

**Шахназ Карашова**

**СЕМАНТИЧЕСКОЕ ЧТЕНИЕ НА ЗАНЯТИЯХ АНГЛИЙСКОГО ЯЗЫКА И ЭТАПЫ ЕГО РЕАЛИЗАЦИИ**

**Резюме**

До недавнего времени чтению в системе обучения иностранным языкам уделялось мало внимания. Если раньше считалось, что чтение — это лишь источник пополнения словарного запаса обучающегося новыми словами, отправная точка для различных высказываний диалогического и монологического характера, то сейчас чтение стало рассматриваться как одна из главных целей обучения — источник получения новой интеллектуальной и эстетической информации. В настоящее время чтение имеет очень большое значение в изучении иностранных языков. Правильный подбор чтения повышает интерес обучающихся к изучению иностранного языка. Правильный подбор чтения повышает интерес обучающихся к изучению иностранного языка. Чтение не только развивает навыки владения иностранным языком, но и играет ключевую роль в формировании фундаментальной основы навыков чтения. Изменения, внесенные в методику обучения иностранным языкам в последние годы, нашли свое отражение в подборе и использовании чтения. Проблемы, возникающие при подборе чтения, и их пути решения широко обсуждаются в представленной работе. В представленной статье проведен анализ процесса чтения и его смысловой реализации на занятиях по английскому языку.

**Ключевые слова:** смысловое чтение, экспрессивное чтение, стратегия чтения, читательские привычки.

**Rəyçi: f.ü.f.d., dosent Sevinc Səlim qızı Məmmədzadə**